


# Azərbaycan Xəzər dənizində ən böyük donanması olan ölkədir

> *İndi bizə lazım olan bütün gəmilər Azərbaycanda istehsal edilə bilər. Tarixdə ilk dəfə həm tanker, həm də ki, gəmi-bərə tikilib.*
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**




***Respublikamızın Avrasiyanın əhəmiyyətli nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilməsinə yönələn irimiqyaslı infrastruktur layihələri, o cümlədən iki donanmanın birləşdirilməsi yolu ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) yaradılması, ən yeni texnoloji standartlar səviyyəsində gəmiqayırma zavodunun istifadəyə verilməsi, Bakı–Tbilisi–Qars dəmir yolunun işə salınması və Xəzərdə ən böyük Bakı Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi son illər Azərbaycanda məqsədyönlü strateji planın uğurla reallaşdırılmasının bariz nümunələridir. Ənənələrinə sadiq qalaraq, 160 illik təcrübəsindən lazımınca bəhrələnən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" bu gün beynəlxalq tələblərə uyğun dəniz nəqliyyatı xidmətləri gerçəkləşdirməklə iqtisadiyyatımızın inkişafına dəyərli töhfələr verir.***

Azərbaycanda iqtisadi islahatların sürətlə həyata keçirilməsi nəticəsində qeyri-neft sektoru hazırda inkişafın yeni mərhələsinə daxil olub və bu, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"ndə də aydın nəzərə çarpır. Son illərdə ən yeni texnoloji standartlara uyğun inşa edilən gəmiqayırma zavodunun işə salınması, gəmiçiliyin donanmasında gəmilərin sayının getdikcə artması bunun parlaq ifadəsidir.

Yeri gəlmişkən, gəmiçiliyin əsası 1858-ci ildə "Qafqaz və Merkuri" Səhmdar Cəmiyyətinin yaradılması ilə qoyulub. 2013-cü ildə isə respublikada mövcud olan iki böyük donanma – Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Dövlət Neft Şirkətinin Xəzər Dəniz Neft Donanması birləşdirilərək "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC yaradılıb.

Hazırda Xəzər hövzəsində ən böyük mülki donanmaya malik qurum olan "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"nin tərkibinə nəqliyyat donanması ilə yanaşı, ixtisaslaşdırılmış donanma və gəmi təmiri zavodları da daxildir.

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 13-də Bakı gəmiqayırma zavodunun yerli mütəxəssisləri tərəfindən inşa olunan "Laçın" adlı ilk neft tankerinin istismara verilməsi və "Azərbaycan" gəmi-bərəsinin suya salınması mərasimində iştirak edib. Mərasimdə dövlətimizin başçısına məlumat verilərək, bildirilib ki, tanker "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"nin sifarişi və Odessa Dəniz Mühəndisliyi Bürosunun layihəsi əsasında inşa olunub.

Özünəməxsusluğu ilə seçilən və Azərbaycan tarixində bir ilk olan "Laçın" tankerinin uzunluğu 141 metr, eni 16,9 metr, ağırlığı isə 7875 tondur. Başqalarından fərqli olaraq, 4-5 min tondan artıq yüklə Volqa-Don kanalından keçmək imkanına malikdir.



"Laçın" tankeri nəinki Xəzərdə neft və neft məhsullarının daşınmasını, həmçinin Volqa-Don və Volqa-Baltik kanalları ilə Xəzərdən kənar hövzələrə də maye yüklərin daşınmasını təmin edəcək. Yeni nəsil tankerin inşası Azərbaycanın iqtisadi və sənaye potensialının gücləndirilməsində mühüm rol oynayan Bakı gəmiqayırma zavodunun növbəti uğurudur.

Xatırladaq ki, Azərbaycan Xəzər dənizində 200-dən çox gəmisi olan ən böyük donanmaya malik ölkədir. Bu gün respublikamızda 20 tanker var. Dövlət başçısının dəstəyi ilə sifariş olunan dörd tanker də inşa edilir.

Hazırda zavodda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin donanması üçün zəruri olan müxtəlif təyinatlı gəmilərin inşası ilə bağlı danışıqlar aparılır. Onların arasında quru yük, konteyner daşıyan, kran, yanğınsöndürən, yedək-təchizat, təchizat və nəqliyyat gəmiləri də vardır.

Bakı gəmiqayırma zavodunda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sifarişi əsasında bu tip daha 3 tankerin tikintisi aparılır.

Ölkə rəhbərinin iştirakı ilə suya salınan "RoPax" tipli yeni "Azərbaycan" gəmi-bərəsinin layihəsini də Odessa Dəniz Mühəndisliyi Bürosu hazırlayıb. Bu, Xəzərdə ən çox avtomobil və TIR götürən gəmi olacaq. Başqa sözlə, "Azərbaycan" gəmi-bərəsi 56 vaqon, 50 TIR, həmçinin 100 sərnişin götürəcək. Heyət sayı 30 nəfərdən ibarət olacaq unikal "RoPax" tipli gəmi-bərənin uzunluğu 154,5, eni 17,7 metr, sürəti 14 uzelə bərabərdir.

"Azərbaycan" bərə gəmisi, eləcə də hazırda inşası davam edən daha 1 ədəd eyni tipli bərə gəmisi "Şərq-Qərb" nəqliyyat dəhlizi üzrə Xəzər üzərindən keçən və artmaqda olan tranzit yüklərin daşınmasına mühüm töhfə verəcək.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" tərəfindən təkcə son 6 ildə 20 gəmi alınıb. QSC gəmilərin inşasında yerli gəmiqayırma sənayesinin dəstəklənməsi məqsədilə regionda ən müasir və unikal gəmi tikintisi potensialına malik Bakı gəmiqayırma zavodunun imkanlarından geniş istifadə edir. İndiyədək sözügedən zavodda gəmiçiliyin sifarişi ilə 1 liman-yedək və 3 sərnişin gəmisi tikilərək təhvil verilib. Bundan əlavə, 2016-cı ilin sonunda vaqon-TIR və sərnişin daşınması üçün nəzərdə tutulan 2 ədəd "RoPax" bərə tipli gəmilərin və maye yüklərin daşınmasını reallaşdıran 2 ədəd tankerin inşası üzrə gəmiçilik ilə zavod arasında müqavilə imzalanıb. Bu ilin fevralında isə daha 2 ədəd eyni tipli tankerin tikintisi üzrə gəmiçilik tərəfindən Bakı gəmiqayırma zavoduna sifariş verilib.

Xatırladaq ki, həmin gəmilərin tikintisinin 70 faizi gəmiçiliyin mənfəəti, 30 faizi isə dövlət investisiyası hesabına maliyyələşir.

Hazırda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Xəzər dənizində yeganə bərə operatorudur. Qurumun bərələri Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşıma zəncirinin mühüm həlqəsi olmaqla, Xəzərin Şərq və Qərb sahillərindəki dəmir yollarını dəniz üzərində birləşdirir, Azərbaycan ərazisindən tranzit yüklərin daşınmasına, ölkənin əlverişli coğrafi mövqeyi və tranzit potensialının reallaşdırılmasına xidmət edir.

***"Xalq qəzeti"***




Xalq qəzeti.- 2019.- 19 dekabr.- S.6.